

■ Nəzakət

## YURD DEDİYİM BU TORPAQ

Yurd dediyim bu torpaq
Alnımın yazısıdır.
Babamın əmanəti,
Anamın laylasıdır.

Yurd dediyim bu torpaq
Yenilməyən qalamdı.
Təkcə anam deyil ki,
Həm də mənim balamdı.

Yurd dediyim bu torpaq
Ovxarlı qeyrətimdi.
Dünyanı heyran qoyan
Əbədi şöhrətimdi.

Yurd dediyim bu torpaq
Odum, közümdü mənim.
Kimliyimi tanıdan
Ulu sözümdü mənim.

Yurd dediyim bu torpaq
Ağır-ağır elimdi.
Qəlbləri ovsunlayan
Şirin ana dilimdi.

Yurd dediyim bu torpaq
Bükülməyən dizimdi.
Dünyanın sinəsində,
Ləpirimdi, izimdi.

Yurd dediyim bu torpaq
Xalqımın qismətidi.
Əzəldən hər qarışı
Millətin ismətidi.

Yurd dediyim bu torpaq
Keçmişdi, gələcəkdir.
Sinəsində millətin
Arzusu güləcəkdir.

Yurd dediyim bu torpaq
Haqq ünvanlı səsimdi.
Zamanın yollarında
Tükənməz həvəsimdi.

Yurd dediyim bu torpaq
Əbədi harayımdı.
Sədaqətlə süslənmiş
Məhəbbət sarayımdı.

Yurd dediyim bu torpaq
Dinimdi, imanımdı.
Tarixin dəryasında
Əzəli limanımdı.

Yurd dediyim bu torpaq
Millətimin səsidir.
Milyon-milyon ürəyi
Hərarəti isidir.

Yurd dediyim bu torpaq
Babaların məzarı.
Ümidlərin baharı,
Arzuların gülzarı.

Yurd dediyim bu torpaq
Ünvanımdı, adımdı.
Babama, övladıma
Ulu hesabatımdı.

Yurd dediyim bu torpaq
Qanımla suvanıbdı.
Ürəyimin oduyla
Ocağı qalanıbdı.

Yurd dediyim bu torpaq
Qədim Odlar diyarı.
Babəkin arzusudu,
Xətainin vüqarı.

Yurd dediyim bu torpaq
Əmanətdir, əmanət.
Hər qayası, hər daşı,
Dəyanətdir, dəyanət.

Yurd dediyim bu torpaq
Barım, bərəkətimdir.
Tanrının bəxş etdiyi
Haqqım, həqiqətimdir.

Yurd dediyim bu torpaq
Tarixin sübh çağıdır.
Həniri sozalmayan
Ərənlər ocağıdır.

Yurd dediyim bu torpaq
Qəhrəmanlar yurdudur.
Xırdaca bir daşı da
Yenilməyən ordudur.

Yurd dediyim bu torpaq
Ən ulu hikmətimdi.
Dağı, daşı, ağacı
Tanrıyla ülfətimdi.

Yurd dediyim bu torpaq
Səsimdi, sorağımdı.
Arzular çiçək açmış
Bir bağçamdı, bağımdı.

Yurd dediyim bu torpaq
Əbədi libasımdı.
Burda yaşanan ömür
Baharımdı, yazımdı.

Yurd dediyim bu torpaq
Döyüş qərargahımdı.
Hər çınqılı, hər daşı,
Ulu səcdəgahımdı.

## SƏNGƏR

Vətənin ağrılı, çətin anında
Ömrün qapısından çıxdı şəhidim.
Əsgər hünərini, əsgər andını,
Düşmənə güllətək sıxdı şəhidim.

Hünər qanad açdı onun ruhunda,
Dilləndi qanında bir ulu "Cəngi".
Əsgər qeyrətindən həvəslənərək,
Üçrəngli bayrağın açıldı rəngi.

Qürbətdə üşüyən yurd yerlərində
Harayı ucaldı ər oğlu ərin.
Dillərdə dolaşdı şərəfli adı,
Millətə ruh verən böyük hünərin.

Qeyrətə bələnmiş arzularını
Torpağın boynuna taxdı igidim.
Dözümün, təmkinin daş hasarını
Yağının başına yıxdı igidim.

Düşmənin üstünə getdi ər kimi,
Coşdu damarında qeyrət ahəngi.
Çaqqal sürüsütək qırdı düşməni,
Vətən torpağının cavan pələngi.

Üstünə yağsa da yağı gülləsi,
Ölümün gözünə qorxmadan baxdı.
Mələklər bəzəyən bəy otağıydı,
Üstünə çıxdığı şəhidlik taxtı.

Ölümü qorxutdu cəsarətiylə,
Bəxtinin yolları düşsə də düyün.
Bir vətən oğlunun döyüşçü ömrü
Açdı qapısını ölümsüzlüyün.

Vətən güzgü tutur hünər yoluna,
Həsrət sinəsindən köçür illərin.
Ölməzlik nəğməsi hopub ömrünə,
Torpağı Vətənə döndərənlərin.

Hər qəlbdə çağlayır qeyrət dənizi,
Millətim, həmişə üzün ağ olsun!
Qürurla söyləyir şəhid anası,
Ey müqəddəs Vətən, başın sağ olsun!

Vətən, dərdlərinə dərman olmağa
Şəhid balam kimi oğullar gərək.
Şanlı Qələbənin yolları üstə
Hünərvər ömürlər döşənsin gərək.

Adın qəhrəmandır, ucadır soyun,
Haqqın dərgahıdır məzarın, şəhid.
Bəzənib Allahın məhəbbətiylə
Əbədiyyət adlı gülzarın, şəhid.

Ana yurdumuza səngərdi sinən,
Torpağın sevgisi taleyinlə tən.
Baxıb hünərinə öyünür Vətən,
Zəfər ünvanısan, Vətən əsgəri.

Dağlar babaların daş nərəsidi,
Sular nənələrin layla səsidi.
Qəlbinin oduyla Vətən isindi,
Zəfər ünvanısan, Vətən əsgəri.
Səndən söz açdıqca yorulmur ürək,
Ümidlər açılır hey çiçək-çiçək.
Əzminlə yurduma zəfər gələcək,
Zəfər ünvanısan, Vətən əsgəri.

## ŞƏHİD ANASI

Köksündə ağrı var dağın, daşın da,
Qan izi buğlanır hər qarışında.
Oğlun heykəlləşib yurd yaddaşında,
Sil göz yaşlarını, şəhid anası.

Haqqın, həqiqətin sözü səndədir,
Sevgi ocağının közü səndədir.
Millətin, Vətənin gözü səndədir,
Sil göz yaşlarını, şəhid anası.

Dözümün, təmkinin lap son həddisən,
Namusun, qeyrətin pak sərhəddisən.
Düşmən bizə baxır əymə qəddi sən,
Sil göz yaşlarını, şəhid anası.

Oğlun itirmədi haqqı-sayını,
Asdı zirvələrdən öz harayını.
Dağıt qəlbindəki qəm sarayını,
Sil göz yaşlarını, şəhid anası.

Xətai babamın yolu diksinir,
Babəkin kəsilmiş qolu diksinir.
Vətənin hər şəhid oğlu diksinir,
Sil göz yaşlarını, şəhid anası.

Demə itib ömrün bəxtiyar çağı,
Qapıtək açılır haqqın qucağı.
Alışır ümidin sönmüş ocağı,
Sil göz yaşlarını, şəhid anası.

"Vətən", "ana" sözü tən yaranıb, tən,
Bu inam üstünə qoy enməsin çən,
Qoy baxıb üzünə sevinsin Vətən,
Sil göz yaşlarını, şəhid anası.

